# TÜRKİYE CUMHURİYETİ HÜKÜMETİ İLE AZERBAYCAN CUMHURİYETİ HÜKÜMETİ ARASINDA AİLE, KADIN VE ÇOCUK POLİTİKALARI ALANINDA İŞBİRLİĞİ PROTOKOLU

Bundan sonra "Taraflar" olarak anılacak olan Türkiye Cumhuriyeti Hükümeti ve Azerbaycan Cumhuriyeti Hükümeti,

Aile, kadın ve çocuk politikaları alanında işbirliğini güçlendirmek amacıyla,

İnsan haklarının sağlanması zorunluluğundan yola çıkarak aile, kadın ve çocuk alanlarında problemlerin çözümü istikametinde mevcut perspektiflerden karşılıklı olarak yararlanmak maksadıyla,

Tarafların temsil ettikleri devletlerin yasal mevzuatı, bu çerçevede uluslararası hukukun evrensel ilke ve kuralları öncülüğünde,

Aile, kadın ve çocuklara yönelik ortak özel politika ve stratejiler üreterek işbirliğini bu alanlarda yoğunlaştırmak, bilgi ve uzman değişimini sağlamak ve bu imkânları geliştirmek üzere aşağıda yer alan maddeler üzerinde anlaşmışlardır.

## 1. Madde

Taraflar aile, kadın ve çocuk alanlarında işbirliğini geliştirerek, toplumun tüm kesimlerine yönelik politika ve stratejilerin geliştirilmesi çalışmaları yapacaklardır.

## 2. Madde

Taraflar, ailenin, kadınların ve çocukların statüsünün güçlendirilmesine yönelik plan ve programlar hazırlayarak bunların yürütülmesini sağlayan kurumlar arasında işbirliğini teşvik edecek ve bilgi ve deneyimlerin paylaşılmasını kolaylaştıracaklardır.

## 3. Madde

Taraflar, kurumsal gelişimin sağlanması, uzman personel yetiştirilmesi, tecrübe aktarımı için ortak eğitim programı, karşılıklı inceleme ziyaretleri, uluslararası toplantılar ve uzman değişim programı düzenleyeceklerdir. İnceleme ziyaretleri ve uzman değişim programında masraflar, uzmanları gönderen ülke tarafından; ortak eğitim programı ve uluslararası toplantılarda masraflar, toplantının düzenlendiği ülke tarafından karşılanacaktır.

**4. Madde**

Taraflar aile, kadın ve çocuklar üzerinde çalışmalar yapan sivil toplum kuruluşlarının kapasite, bilgi ve deneyimlerini arttırmak için işbirliğini teşvik edeceklerdir.

**5. Madde**

Taraflardan biri tarafından veya ortaklaşa gerçekleştirilen ilgili aktivitelere çocukların, gençlerin ve kadınların etkin katılımının sağlanması için işbirliği yapacaklardır.

**6. Madde**

Taraflar aile, kadın ve çocuklar üzerinde ortak çalışmalar yapmak üzere tematik çalışma grupları oluşturacaklardır.

**7. Madde**

Taraflar, Protokolün uygulamasına yönelik bir yürütme programının hazırlanması için üçer kişilik teknik uzman heyeti tesis edeceklerdir.

**8. Madde**

Protokol ortak görüş birliği sağlandığı takdirde değiştirilebilir veya ek protokol yapılabilir.

**9. Madde**

Protokolün uygulanması veya yorumlanmasına ilişkin bir fikir ayrılığı oluştuğu takdirde Taraflar arasında karşılıklı görüşmelerle ortaya çıkan fikir ayrılığı çözüme kavuşturulacaktır.

**10. Madde**

İşbu Protokol, yürürlüğe giriş için gerekli iç hukuk prosedürlerinin tamamlandığını bildiren Tarafların son yazılı belgelerinin alındığı tarihten 30 gün sonra yürürlüğe girecektir.

İşbu Protokol beş yıl boyunca yürürlükte kalacaktır ve bu Protokolün geçerliliğini yitirmesinden altı ay önce Protokolün durdurulmasına ilişkin Taraflardan biri yazılı bir bildiri vermediği takdirde otomatik olarak beş yıl daha uzatılmış olacaktır.

İşbu Protokol yürürlüğe girdiği gün 6 Kasım 2007 tarihinde Bakü'de imzalanan "Türkiye Cumhuriyeti Kadın ve Aileden Sorumlu Devlet Bakanlığı ve Azerbaycan Cumhuriyeti Aile, Kadın ve Çocuk İşlerinden Sorumlu Devlet Komitesi Arasında İşbirliği Muhtırası" yürürlükten kalkacaktır.

İşbu Protokol, İzmir şehrinde 25 Ekim 2011 tarihinde Türkçe ve Azerbaycan dillerindeki orijinal her iki metin de eşit şekilde geçerli olmak üzere düzenlenmiş ve imzalanmıştır.

**TÜRKİYE CUMHURİYETİ HÜKÜMETİ ADINA**

**Fatma Şahin**
**Aile ve Sosyal Politikalar Bakanı**

**AZERBAYCAN CUMHURİYETİ HÜKÜMETİ ADINA**

**Hicran Hüseynova**
**Aile, Kadın ve Çocuk Sorunları Devlet Komitesi Başkanı**

# TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ VƏ AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA AİLƏ, QADIN VƏ UŞAQ MƏSƏLƏLƏRİ ÜZRƏ SİYASƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ PROTOKOLU

Bundan sonra "Tərəflər" adlandırılan Türkiyə Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti,

ailə, qadın və uşaq məsələləri üzrə siyasət sahəsində əməkdaşlığı gücləndirmək niyyətində olaraq,

insan hüquqlarının təmin edilməsi zərurətindən çıxış edərək, ailə, qadın və uşaq problemlərinin həlli istiqamətində mövcud perspektivlərdən birgə yararlanmaq məqsədilə,

Tərəflərin təmsil etdikləri dövlətlərin qanunvericiliyi, habelə beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarını rəhbər tutaraq,

ailə, qadın, uşaq məsələləri sahəsində ortaq siyasət və strategiyaların işlənib hazırlanması, informasiya və mütəxəssis mübadiləsinin təmin edilməsi və bu imkanların inkişaf etdirilməsi üçün,

aşağıdakılar barədə razılığa gəldilər:

## Maddə 1

Tərəflər ailə, qadın və uşaq məsələləri üzrə əməkdaşlığı genişləndirərək, cəmiyyətin bütün üzvlərini əhatə edən siyasət və strategiyaların işlənib hazırlanması sahəsində tədbirlər həyata keçirəcəklər.

## Maddə 2

Tərəflər ailənin, qadınların, uşaqların statusunun gücləndirilməsini nəzərdə tutan plan və proqramlar hazırlayaraq, onların həyata keçirilməsini təmin edən qurumlar arasında əməkdaşlığı təşviq edəcək və informasiya və təcrübə mübadiləsini asanlaşdıracaqlar.

## Maddə 3

Tərəflər institusional inkişafın təmin edilməsi, mütəxəssis yetişdirilməsi, təcrübə mübadiləsi üçün birgə təlim proqramı, qarşılıqlı tanışlıq məqsədli səfərlər, beynəlxalq tədbirlər və mütəxəssis mübadiləsi

proqramı təşkil edəcəklər. Tanışlıq məqsədli səfərlər və mütəxəssis mübadiləsi proqramında xərclər mütəxəssisləri göndərən ölkə tərəfindən, birgə təlim proqramı və beynəlxalq tədbirlərdə xərclər toplantının keçirildiyi ölkə tərəfindən ödəniləcəkdir.

**Maddə 4**

Tərəflər ailə, qadın, uşaq məsələləri üzrə fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının imkanlarını, məlumatlılığını və təcrübəsini artırmaq üçün əməkdaşlığı təşviq edəcəklər.

**Maddə 5**

Tərəflər onlardan biri tərəfindən və ya birgə keçirilən müvafiq fəaliyyətlərdə uşaqların, gənclərin və qadınların fəal iştirakının təmin edilməsi üçün əməkdaşlıq edəcəklər.

**Maddə 6**

Tərəflər ailə, qadın, uşaq məsələləri üzrə birgə fəaliyyətlərin həyata keçirilməsi üçün tematik işçi qrupları təşkil edəcəklər.

**Maddə 7**

Tərəflər Protokolun tətbiq olunması üzrə icra proqramının hazırlanması üçün hər bir Tərəfin üç nümayəndəsindən ibarət texniki mütəxəssis heyəti təsis edəcəklər.

**Maddə 8**

Bu Protokol birgə razılıq əsasında dəyişdirilə bilər və ya əlavə protokol tərtib oluna bilər.

**Maddə 9**

Bu Protokolun tətbiqi və ya təfsiri ilə əlaqədar fikir ayrılığı olduqda ortaya çıxan fikir ayrılığı Tərəflər arasında qarşılıqlı danışıqlar yolu ilə həll ediləcəkdir.

**Maddə 10**

Bu Protokol onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirisinin alındığı tarixdən otuz gün sonra qüvvəyə minir.

Bu Protokol beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Protokolun müddətinin bitməsinə altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər tərəfə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş il müddətinə uzadılacaqdır.

Bu Protokol qüvvəyə mindiyi gündən 6 noyabr 2007-ci ildə Bakı şəhərində imzalanmış "Türkiyə Respublikasının Qadın və Ailə Məsələləri üzrə Dövlət Nazirliyi və Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi arasında əməkdaşlıq haqqında Memorandum" qüvvədən düşəcəkdir.

Bu Protokol İzmir şəhərində 25 oktyabr 2011-ci ildə hər iki mətn eyni qüvvəyə malik olmaqla Türk və Azərbaycan dillərində tərtib olunmuş və imzalanmışdır.

| | |
|---|---|
| **TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN** | **AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ ADINDAN** |
| **Fatma Şahin**<br>**Ailə və Sosial Siyasət Naziri** | **Hicran Hüseynova**<br>**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Sədri** |